Avrasya İncelemeleri Dergisi
*Journal of Eurasian Inquiries*

İSTANBUL UNIVERSITY PRESS

Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries 12, 2 (2023): 103-116
DOI: 10.26650/jes.2023.1283067

Araştırma Makalesi / *Research Article*

# Heydər Əliyevin Azərbaycanın Türkiyə İlə Münasibətlərinin İnkişafına Baxışları

# Haydar Aliyev'in Azerbaycan'ın Türkiye ile İlişkilerinin Gelişimine İlişkin Görüşleri

# Heydar Aliyev's Views on the Development of Azerbaijan's Relations with Türkiye

Ramilə Dadaşova[1]

[1] **Sorumlu yazar/Corresponding author:** Ramilə Dadaşova (xxxx.),
Azerbaycan Milli Bilimler Akademisi, Kafkazya Araştırmaları Enstitüsü, Bakü, Azərbaycan
E-mail: dadashova.ramila@rambler.ru
ORCID: 0000-0002-2376-5941

**Başvuru/Submitted:** 14.04.2023
**Revizyon Talebi/Revision Requested:** 13.06.2023
**Son Revizyon/Last Revision Received:** 13.06.2023
**Kabul/Accepted:** 14.08.2023

**Atıf/Citation:** Dadaşova, R. "Haydar Aliyev'in Azerbaycan'ın Türkiye ile İlişkilerinin Gelişimine İlişkin Görüşleri". *Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries 12, 2* (2023):103-116. https://doi.org/10.26650/jes.2023.1283067

**Özət**

Eyni dilə, dinə, oxşar adət və ənənələrə malik Azərbaycan və Türkiyə arasında əlaqələrin böyük tarixi vardır. Ümummilli lider Heydər Əliyev Sovet İttifaqının dağılmasından sonra türk dövlətlərinə sahib çıxaraq onların inkişaf etdirilməsi üçün Türkiyənin üzərinə düşən vəzifələr haqqında Qazi Mustafa Kamal Atatürkün vəsiyyətinin yerinə yetirilməsi zamanının gəldiyini, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil sahəsində, bütün başqa sahələrdə əlaqələrin başqa dövlətlərlə olan əlaqələrdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəyini bildirirdi. Heydər Əliyev beynəlxalq təşkilatlarla, böyük dövlətlərlə əlaqələrdə Türkiyənin dünyadakı nüfuzundan və təsirindən istifadə edərək Azərbaycana kömək edəcəyinə inanırdı. Xüsusən də türkdilli, türk mənşəli respublikaların ümumi toplantısı olan Türk Dövlətləri Başçılarının zirvə toplantılarına önəm verirdi. Belə görüşlərin keçirilməsinin türk dövlətlərinin bir-biri ilə daha sıx əlaqələr yaratmasına müsbət təsiri olduğunu vurğulayırdı. Heydər Əliyev xaricdə olan azərbaycanlıların diasporasının inkişafına, xaricdə təhsil alan tələbələrə, professor və müəllimlər arasında əlaqələrin inkişafına çox ümid bəsləyirdi. Həm iqtisadi nöqteyi-nəzərdən, həm də qardaşlığımızın möhkəmləndirilməsi nöqteyi-nəzərindən Türkiyə ilə iqtisadi əlaqələrin inkişafına üstünlük verirdi.

**Açar sözlər:** Azərbaycan, Türkiyə, türkdilli dövlətlər, diplomatik-siyasi əlaqələr, iqtisadi əlaqələr

**ÖZ**

Aynı dile, dine, benzer adetlere sahip olan Türkiye ile Azerbaycan arasında ilişkilerin uzun bir tarihi vardır. Milli lider Haydar Aliyev, Gazi Mustafa Kemal Atatürk'ün Sovyetler Birliği'nin dağılmasından sonra Türkiye'ye düşen Türk devletlerini sahiplenip kalkındırma konusundaki vasiyetini yerine getirme zamanının geldiğini, Türkiye ile Azerbaycan arasında ekonomi, ticaret, bilim, kültür, eğitim ve diğer tüm alanlardaki ilişkilerin başka ülkelerle olan ilişkilerden dostluk ve kardeşlik

This work is licensed under Creative Commons Attribution-NonCommercial 4.0 International License

ilişkileri olarak olumlu anlamda farklılık göstereceğini söyledi. Haydar Aliyev, Türkiye'nin uluslararası kuruluşlar ve büyük güçlerle ilişkilerinde dünyadaki nüfuzunu kullanarak Azerbaycan'a yardım edeceğine inanıyordu. Özellikle Türkçe konuşan, Türk kökenli cumhuriyetlerin genel kurulu olan Türk Devletleri Başkanları zirve toplantılarına önem veriyor, bu tür toplantıların yapılmasının Türk devletleri arasında daha yakın ilişkilerin kurulmasına olumlu etkisinin olduğunu belirtirdi. Haydar Aliyev, yurtdışındaki Azerbaycanlı diasporasının gelişmesi, yurtdışında okuyan öğrenciler ve profesörler ile öğretmenler arasındaki ilişkilerin geliştirilmesine büyük umutlar besliyordu. Hem ekonomik açıdan hem de kardeşliğimizi güçlendirme açısından Türkiye ile ekonomik ilişkilerin geliştirilmesini tercih ediyordu.
**Anahtar Kelimeler:** Azerbaycan, Türkiye, Tükçe konuşan ülkeler, diplomatik-siyasi ilişkiler, ekonomik ilişkiler

**ABSTRACT**

The historical relations between Azerbaijan and Türkiye, marked by shared language, religion, and customs, have deep roots. National leader Heydar Aliyev stated that following the collapse of the Soviet Union, Türkiye had a crucial role to play in embracing the legacy of Gazi Mustafa Kemal Atatürk, particularly in developing and nurturing Turkish states. Aliyev believed that Türkiye could leverage its global influence to support Azerbaijan's international relations and engage with major powers. Notably, he emphasized the importance of the Heads of Turkic States summits, a collective assembly of the Turkic republic, in fostering closer relations among Turkic countries. Aliyev also placed great emphasis on the development of Azerbaijan's diaspora abroad, the educational pursuit of Azerbaijani students abroad, and the development of relations between professors and teachers working abroad. He preferred the development of economic relations with Türkiye from the economic perspective and the perspective of strengthening our brotherhood.
**Keywords:** Azerbaijan, Türkiye, Turkish-speaking countries, diplomatic-political relations, economic relations

## EXTENDED ABSTRACT

The phrase "One nation, two states" described by national leader Heydar Aliyev, holds worldwide recognition and is integral to foreign policies of Azerbaijan and Türkiye, aimed at uniting Turkish countries in solidarity. This sentiment echoes the sentiment expressed by national leader Mustafa Kemal Atatürk, who stated, "Azerbaijan's sorrow is our sorrow, and its joy is our joy" a sentiment confirmed by Türkiye's support of Azerbaijan in the Patriotic War and its support of the end. President Ilham Aliyev continues Heydar Aliyev's policy of prioritizing relations with Türkiye, thereby strengthening the brotherhood ties between the two countries. It is important to note that the Azerbaijan-Turkey relationship transcends ordinary international relations, owing to their shared language, religion, and customs rooted in a profound historical connection. Heydar Aliyev believed that, following the dissolution of the Soviet Union, it was incumbent upon Turkey to assume the responsibility of guiding and developing the Turkish countries. He foresaw that the relations between Türkiye and Azerbaijan in the fields of economy, trade, science, culture, education, and others, are characterized by a spirit of friendship and brotherhood.

Aliyev underscored the commonalities in culture, history, traditions, language, and religion between Türkiye and Azerbaijan, emphasizing their enduring unity. All these factors have united us together for centuries. Even our recent separation has not taken away our unity. Now,

we have enough opportunities to sustain this union, and the relations between Azerbaijan and Türkiye include not only friendly and brotherly but also business relations.

Heydar Aliyev believed that Türkiye could assist Azerbaijan in the field of foreign policy, leveraging Türkiye's global reputation and influence in dealings with international organizations and major powers. Specifically, he attached importance to the summit meetings of the Heads of Turkic States, which serve as a collective assembly of Turkic-speaking, Turkic-origin republics. He underscored that convening such meetings has a positive impact on forging closer relations among the Turkish states.

President Heydar Aliyev prioritized the advancement of economic relations between Azerbaijan and Türkiye, driven not only by economic points but also by shared national roots, traditions, language, religion, historical past, geographical proximity, and most importantly, from the perspective of strengthening our brotherhood. Heydar Aliyev consistently underscored the importance of the oil pipeline passing through Türkiye for facilitating oil export.

Furthermore, Heydar Aliyev held great aspirations for the development of the Azerbaijani diaspora abroad, the education of Azerbaijani students in Türkiye, the cultivating of skilled personnel useful for our country, and the nurturing of relationships between professors and teachers.

He advised Azerbaijani organizations abroad to maintain strong ties with Azerbaijan and steadfastly protect the interests of the motherland in foreign countries where they reside.

National leader Heydar Aliyev tried to develop relations between Azerbaijan and Türkiye in the fields of science and education at a high level. He had high hopes for students from Azerbaijan to study and return to Türkiye, to train useful personnel for our country, and for relations between professors and teachers. Heydar Aliyev highly valued the Republic of Türkiye's observance of universal values and attached importance to the study of Türkiye's domestic and foreign policy and emphasized that "it is of great importance to turn the domestic and foreign policy, socio-economic and cultural experience into a scientific-theoretical research object of the modern Turkish state, which is moving toward the light emerging from Atatürk's famous idea of "Peace in the country, peace in the world."

Heydar Aliyev regarded the celebration jubilees honoring Azerbaijani and Turkish poets, writers, and thinkers, jointly held in both countries, as a great event that created conditions for the unification and rapprochement of our peoples, and the determination to follow the same path in the future. Heydar Aliyev encouraged writers to provide their services to Turkic-speaking peoples in closer proximity, facilitating more direct understanding and connection among them.

## Giriş

Soykökü, adət və ənənələrin ortaqlığı, dini birlik türk xalqlarını ayrılmaz tellərlə bir-birinə bağlayır. Ortaq tarixə, ortaq mədəniyyətə, ortaq dilə, dinə, dəyərlərə mənsub Azərbaycan və Türkiyənin dostluğu, qardaşlığı qədimdən olmuşdur və möhkəmlənməkdə davam edir. I Dünya müharibəsi zamanı Çanaqqala döyüşlərində Azərbaycan türkləri və Osmanlı türkləri çiyin-çiyinə vuruşmuşlar. 1918-ci il sentyabrın 15-də Nuru Paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusu Bakını işğalçılardan azad etmişdir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə, Kəlbəcəri işğal etməsinə etiraz olaraq 1993-cü ildə Türkiyə Ermənistanla sərhədini bağladı. Bundan başqa, Türkiyənin yardımı və Türkiyə ilə Naxçıvan arasında Araz çayı üzərində "Ümid" körpüsünün inşa olunması Naxçıvanı blokadadan çıxardı. 1992-ci ildə Türkiyə ilə Azərbaycan arasında tikilmiş körpünün "ümid körpüsü", "həsrət körpüsü" adlandırılması da təsadüfi deyil. Xalq tərəfindən "Ümid" körpüsü adlandırılan "Sədərək-Dilucu" körpüsü sözün əsl mənasında ilk növbədə Azərbaycanı, ölkəmizin ayrılmaz parçası olan Naxçıvanı ümidsizlikdən, inamsızlıqdan xilas etmişdir. Sədərək-Dilucu körpüsü Naxçıvanın üstünü alan qara buludları dağıtdı, işğalçı Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin ifşa edilməsi üçün yeni şərait və zəmin yaratdı[1]. 70 il ərzində azərbaycanlılar Türkiyədə olan qardaşları ilə əlaqələrdən məhrum olmuşdular və Türkiyəyə həmişə böyük həsrətlə, böyük ümidlə baxırdılar. Azərbaycan müstəqillik qazandıqdan sonra bu imkanlar yarandı. Ürəkdən-ürəyə olan körpülər daha da möhkəmləndi və ölkələrimiz arasında körpü salındı. Bu körpü həqiqətən ümid körpüsü, həsrət körpüsü kimi tarixə daxil oldu[2].

Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadəsi bu gün bütün dünyada məşhurdur, hər iki dövlətin Azərbaycanın və Türkiyənin xarici siyasətində məna kəsb edir, türk xalqlarının həmrəyliyinə yönəlmişdir. Qazi Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" ifadəsi 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycanı dəstəkləməsi, sonadək yanında olması ilə bir daha təsdiqini tapdı. Azərbaycan Respublikasının Pezidenti İlham Əliyev də ümummilli lider Heydər Əliyevin siyasətini davam etdirərək Türkiyə ilə münasibətlərə xüsusi önəm verir və bu qardaşlıq münasibətləri son dərəcə möhkəmlənməkdədir. 2014-cü ilin aprelində Praqada keçirilən "Şərq tərəfdaşlığı" Sammitində Türkiyənin təmsil edilməməsindən sui-istifadə edən Ermənistan prezidenti Sarkisyan Türkiyəni "erməni soyqırımını" tanımamaqda, Ermənistanla sərhədləri açmamaqda ittiham etdikdə sammitdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev onun sözünü kəsərək "Türkiyə burada yoxdur, amma mən varam" dedi və Türkiyə həqiqətlərindən danışdı.

Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında Türkiyə Prezidenti iştirak etməklə Azərbaycanın sevincinə şərik oldu. Prezident İlham Əliyev Zəfər paradında Türkiyənin

1 D: Google. Süleyman Dəmirəl-Heydər Əliyev qardaşlıq münasibətləri türk dünyasının həmrəylik rəmzidir. Son güncelleme 17 Haziran, 2022. https://azertag.az/xeber/Suleyman_Demirel_Heyder_Aliyev_qardasliq_munasibetleri_turk_dunyasinin_hemreylik_remzidir-2181920

2 D: Heydər Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab, iyun, 1993, may, 1994, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)* (Bakı: Azərnəşr, 1997), 363-364.

dəstəyini belə dəyərləndirdi: “Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk”[3]. Rəcəb Tayyib Ərdoğan nitqində qeyd etdi ki, “Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin “Bir millət, iki dövlət” şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq”[4]. Şuşada keçirilən “Xarıbülbül” festivalında, eləcə də Füzuli Hava limanının açılışında Türkiyə Prezidentinin iştirakı bir daha göstərdi ki, Türkiyə sevincli günlərində də Azərbaycanın yanındadır.

2021-ci il iyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Müttəfiqlik haqqında Şuşa Bəyannaməsini imzalamaları Türk dünyasında yeni eranın başlanğıcı oldu. Şuşa Bəyannaməsi Qars müqaviləsi qədər əhəmiyyətlidir. Heydər Əliyev Türkiyənin həmişə Azərbaycanın yanında olduğunu, Qars müqaviləsinin, Moskva müqaviləsinin əhəmiyyətini belə ifadə edirdi: “...Vaxtilə məhz Türkiyənin iştirakı ilə məşhur “Qars müqaviləsi” əsasında, məşhur “Moskva müqaviləsi” əsasında Naxçıvan Muxtar Respublikasına xüsusi status verilmişdir və bu statusa görə Naxçıvanın statusunda bir dəyişiklik Türkiyənin icazəsi olmadan ola bilməz. O vaxt, məhz Naxçıvan təhlükə altında olduğu zaman, Ermənistan Azərbaycana təcavüzünü şiddətli həyata keçirdiyi zaman, Naxçıvan da təhlükə altında olduğu zaman biz hörmətli Süleyman Dəmirəllə birlikdə Ankarada “Qars müqaviləsi”nin nə qədər böyük əhəmiyyətli olduğunu bütün dünyaya bəyan etdik. Hamıya xəbərdarlıq olundu ki, Naxçıvanı qoruyanlar var, Naxçıvandan əllərini çəkməlidirlər. Bütün bunların hamısı tariximizin səhifələridir...”[5]

İşğaldan azad edilmiş torpaqlarda bu gün Azərbaycan Bayrağı ilə yanaşı Türkiyə Bayrağının dalğalanması Vətənini sevən hər bir vətəndaş üçün qürurverici haldır. 2023-cü ilin fevral ayında

3 D: Google. İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər. Son güncelleme 11 Aralık, 2020. https://president.az/az/articles/view/48788

4 K.D: Google. İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər. Son güncelleme 11 Aralık, 2020. https://president.az/az/articles/view/48788

5 D: Heydər Əliyev, *Müstəqilliyimiz əbədidir: 5-ci kitab, noyabr, 1995, mart 1996, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)* (Bakı: Azərnəşr, 1998), 173-174.

Türkiyədə kütləvi insan ölümünə səbəb olan zəlzələ zamanı Azərbaycan xalqı Türkiyənin yanında oldu. "Bir millət, iki dövlət" ifadəsi bir daha təsdiqini tapdı.

Azərbaycan-Türkiyə qardaşlıq bağları heç bir dövlətlər arasında münasibətlərlə müqayisə edilə bilməz. İğdır-Azərbaycan Dil, tarix və mədəniyyət birliyini yaşatma və dəstəkləmə dərnəyinin sədri Ziya Zakir Acar yazır ki, Heydər Əliyev düşüncəsinin ən layiqli davamçısı Prezident İlham Əliyevin Türkiyəyə, Türklüyə sevgisi sadəcə türk bağlılığı deyildir, həm də ulu babalarımızdan bizə miras qalan ve göz bəbəyi kimi qorunaraq gələcək nəsillərə əmanət verilməli bir Azərbaycançılık, Türkçülük əxlaqıdır[6].

## 1.Azərbaycan Respublikasının Türkiyə Cumhuriyyəti ilə diplomatik-siyasi münasibətləri

Azərbaycan Respublikasının müstəqilliyini dünya ölkələri arasında ilk dəfə Türkiyə tanımışdır. Türkiyə Cumhuriyyəti 1991-ci il noyabrın 9-da Azərbaycanın müstəqilliyini tanıdı, 1992-ci il yanvarın 14-dən Türkiyənin Azərbaycanda, həmin ilin avqustundan isə Azərbaycanın Türkiyədə diplomatik nümayəndəliyi fəaliyyətə başladı. Azərbaycanın dünya birliyi tərəfindən, eləcə də Türkiyənin Azərbaycanı müstəqil dövlət kimi tanımasında Heydər Əliyevlə şəxsi dostluq münasibətləri olan Süleyman Dəmirəlin xüsusi xidmətləri vardır. 1994-cü il fevralın 8-də Ankarada "Çankaya" köşkündə Azərbaycan Prezidentinin şərəfinə verilən ziyafətdə Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirəlin Azərbaycan Respublikasının istiqlalının əldə olunduğu vaxt böyük fəaliyyət göstərdiyini, Azərbaycan Respublikasının müstəqilliyini bütün dünyada tanıtmaq üçün böyük xidmətləri olduğunu bildirmişdir: "…Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq və bu, Azərbaycanın tarixinə, müstəqil Azərbaycan dövlətinin tarixinə artıq həkk olunmuşdur"[7]. Süleyman Dəmirəl də Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin, qardaşlıq, dostluq əlaqələrinin heç bir ölkə ilə müqayisə edilməyəcək qədər gözəl olduğunu vurğulamışdır[8].

1994-cü il fevralın 9-da Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvətilə Türkiyədə olan Prezident Heydər Əliyev Türkiyə Böyük Millət Məclisində çıxışı zamanı Türkiyə ilə Azərbaycan arasında əlaqələrin böyük tarixi olduğunu, eyni köklü xalq olduqlarını, eyni tarixə, dilə, dinə, oxşar, yaxud azca fərqlənən adət və ənənələrə malik olduqlarını bildirərək vurğuladı: "…Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizdən ayırmağa çox çalışsalar da, buna müvəffəq olmamışlar. Odur ki, bundan sonra da heç bir qüvvə bizi bir-birimizdən ayıra bilməyəcəkdir"[9].

Heydər Əliyev Mustafa Kamal Atatürkün Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə çıxışında dəyərli bir fikrini xatırlatmaqla Türkiyənin üzərinə düşən vəzifələrin

6 D: Google. Türkiye-Azerbaycan ilişkilerinde "Haydar Aliyev". Son güncelleme 15 Ocak, 2020. https://yesiligdir.com/yazar/yazi/7547#
7 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 362-363.
8 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 5-ci kitab*, 165-166.
9 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 366-367.

çox böyük olduğunu nəzərə çatdırdı: "Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kim müəyyən edə bilməz. Nəinki Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalana bilər, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək deyil, hazır olmaq lazımdır. Millətlər buna necə hazırlaşırlar, mənəvi körpüləri möhkəm saxlayırlarmı? Biz bir körpüyük. İnam bir körpüdür, xaric bir körpüdür. Köklərimizə qayıtmalı və hadisələri bölən tariximizin içində bütövlənməliyik. Onların, tarixi köklərin bizə yaxınlaşmasını gözləyə bilmərik. Bizim onlara yaxınlaşmağımız lazımdır"[10].

Heydər Əliyev Mustafa Kamal Atatürkün vəsiyyətinin yerinə yetirilməsi zamanının gəldiyini və həmçinin Azərbaycanın da mövqeyini açıqladı: "…Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil sahəsində, bütün başqa sahələrdə əlaqələr xüsusi xarakter daşıyacaq, başqa dövlətlərlə olan əlaqələrdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəkdir. Bizim mövqeyimiz belədir. Biz bu yolla gedəcəyik və əmin olun ki, bugünkü Azərbaycan dövləti bu yola sadiqdir və sadiq qalacaqdır…"[11] Heydər Əliyev Türkiyə Böyük Millət Məclisində çıxışında bildirdi ki, Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə təkcə Türkiyə Cümhuriyyəti üçün deyil, bütün türk dünyası üçündür, Azərbaycan üçündür[12].

Heydər Əliyev deyirdi ki, Türkiyə ilə Azərbaycanın birgə tarixi keçmişi var. Xalqlarımız bir kökdəndir. Bizim mədəniyyətimiz də, tariximiz də, ənənələrimiz də birdir, dilimiz, dinimiz də birdir. Bütün bunlar əsrlər boyu bizi birləşdirmişdir. Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik və Azərbaycan ilə Türkiyə arasında əlaqələr dostluq, qardaşlıq əlaqələri olmaqla yanaşı, həm də iş əlaqələridir. Biz bu əlaqələri də sürətlə davam etdirəcəyik"[13].

Türkiyənin Ermənistana münasibəti haqqında Heydər Əliyev Türkiyə Respublikasının Baş naziri xanim Tansu Çillərlə Azərbaycan ictimaiyyəti nümayəndələrinin görüşündə nitqində demişdir: "Türkiyənin Ermənistana münasibəti Ermənistanın Azərbaycana olan münasibəti əsasında müəyyənləşdirilmişdir. Xatirimdədir, Parisdə beynəlxalq toplantı olarkən keçirilmiş mətbuat konfransında bir erməni müxbiri Türkiyə prezidenti hörmətli Süleyman Dəmirələ sual verdi: "Siz nə üçün Ermənistanla münasibətləri yaxşılaşdırmırsınız, axı biz qonşu ölkələrik". Süleyman Dəmirəl ona çox dəyərli cavab verərək dedi ki, "Siz nə vaxt Azərbaycan ilə münasibətləri normallaşdıracaqsınızsa, Türkiyə də o vaxt Ermənistan ilə öz münasibətlərini normallaşdıracaqdır"[14].

10 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 370-371.
11 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 372-373.
12 D: Heydər Əliyev, *Müstəqilliyimiz əbədidir: 33-cü kitab, mart, 2001, aprel, 2001, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, məruzələr, müraciətlər, fərmanlar)* (Bakı: Azərnəşr, 2011), 57.
13 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 377-378.
14 D: Heydər Əliyev, *Müstəqilliyimiz əbədidir: 4-cü kitab, iyun, 1995, noyabr, 1995, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)* (Bakı: Azərnəşr, 1997), 100-101

Azərbaycanın müstəqilliyinin ilk illərində bəzi xarici ölkələrin Ankaradakı səfiri eyni zamanda Azərbaycan Respublikasına səfir təyin olunmuşdur. Bu haqda Heydər Əliyev Ankarada “Hilton” mehmanxanasındakı iqamətgahda Türkiyə və Azərbaycandakı xarici ölkə səfirlərini qəbulu zamanı demişdir: “…Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri o qədər sıxdır ki, siz elə Ankarada oturanda hesab edin ki, Bakıdasınız. Ancaq bununla bərabər, mən istərdim ki, siz Bakıya tez-tez gələsiniz. Azərbaycanın vəziyyəti ilə daha yaxından tanış olasınız və Azərbaycan ilə sizin təmsil etdiyiniz ölkələr arasında əlaqələrin inkişaf etməsinə daha ciddi səy göstərəsiniz. ..”[15].

Heydər Əliyev Türkiyənin xarici siyasət sahəsində də Azərbaycana kömək edəcəyinə, beynəlxalq təşkilatlarla, böyük dövlətlərlə əlaqələrdə Türkiyənin dünyadakı nüfuzundan və təsirindən istifadə edə biləcəyinə inanırdı: “Azərbaycan müstəqillik yoluna çıxmış gənc dövlətdir, biz xarici siyasətdə ilk addımlarımızı atırıq. Ona görə də bütün sahələrdə məsləhətlərə ehtiyacımız var və danışıqlarda bu barədə də razılığa gəlmişik”[16].

Xüsusən də türkdilli, türk mənşəli respublikaların ümumi toplantısı olan Türk Dövlətləri Başçılarının zirvə toplantılarına Heydər Əliyev önəm verirdi. 1994-cü il oktyabrın 18-də II Zirvə toplantısında iştirak etmək üçün İstanbula yola düşərkən Binə hava limanında jurnalistlərə müsahibəsində ümummilli lider belə toplantıların əhəmiyyətini dəyərləndirdi: “…Şübhəsiz ki, zirvə toplantısı bizim xalqlarımızın, müstəqil ölkələrimizin bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti – bunlar hamısı respublikalarımızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır”[17].

## 2.Heydər Əliyev Türkiyədəki Azərbaycan diasporasının inkişafının əhəmiyyəti haqqında

Heydər Əliyev xaricdə olan azərbaycanlıların diasporasının inkişafına çox ümid bəsləyirdi. Türkiyədə rəsmi səfərdə olarkən orada yaşayan azərbaycanlılarla görüşdə Heydər Əliyev bildirdi ki, Azərbaycanın müstəqilliyini saxlamaq asan bir iş deyil. Bunun üçün xalqımız, millətimiz – siyasi dünyagörüşündən asılı olmayaraq bütün Azərbaycan xalqı bu gün bir məqsədə –

15 D: Heydər Əliyev, *Müstəqilliyimiz əbədidir: 2-ci kitab, may 1994, dekabr 1994, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)* (Bakı: Azərnəşr, 1997), 454-455.

16 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 400-401.

17 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 2-ci kitab*, 399-400.

Azərbaycanın müstəqilliyini qoruyub saxlamağa xidmət etməlidir[18]. Heydər Əliyev yaşadıqları xarici ölkələrdə azərbaycanlılara təşkilatlanmalarını, Azərbaycan ilə sıx əlaqələr saxlamağı, həmişə vətənin mənafeyini qorumalarını tövsiyə edirdi: “Harada olursa-olsun, azərbaycanlıların birlikdə, bərabər olması əsas şərtlərdən biridir. Biz çalışırıq ki, Azərbaycanın daxilində bütün qüvvələri toplayaq. Eyni zamanda respublikadan kənarda yaşayan azərbaycanlılar da öz qüvvələrini toplamalıdırlar. Ayrı-ayrı qüvvələrin, qrupların arasında fikir müxtəlifliyi ola bilər. Bu, təbii haldır. Ancaq Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü saxlamaq üçün hamı bütün başqa fikirləri kənara qoyub birləşməli, bir hədəfə vurmalı, bir məqsədə xidmət etməlidir”[19]. “Ötən tarixə bir daha nəzər salmaqla belə bir fikrə gəlirik ki, indiki dövrdə Azərbaycan xalqının birləşməsi, həmrəy olması hava, su kimi lazımdır. Bunu xüsusi qeyd edirəm, ona görə ki, xalqımızda məhz son illər bu xüsusiyyətlər çatmayıb. Ona görə də Azərbaycan belə ağır vəziyyətə düşmüşdür”[20]. Heydər Əliyev qeyd etdi ki, bir prezident kimi, respublikamızda yaşayan bütün azərbaycanlıları birləşdirib, Ermənistan silahlı qüvvələrinə qarşı mübarizəni sona çatdırmaq, Azərbaycanın müstəqilliyini qorumaq, ərazilərimizin bütövlüyünü təmin etmək əzmindədir və buna görə də bütün dünya azərbaycanlılarından mənəvi yardım gözləyir”[21].

### 3.Türkiyə ilə iqtisadi əlaqələrin inkişafı

Həm milli köklərin, adət-ənənələrin, dilin, dinin, tarixi keçmişin eyniliyinə görə, həm də coğrafi baxımdan yaxınlığa görə Prezident Heydər Əliyev Türkiyə ilə iqtisadi əlaqələrə önəm verirdi. Türkiyənin iş adamları Mərkəzi Asiyaya, Rusiyaya sərmayə qoyurdular, amma Azərbaycandakı qeyri-sabitlikdən, Ermənistanın torpaqları işğal etməsindən dolayı Azərbaycana sərmayə qoymurdular. Heydər Əliyev Türkiyənin iş adamlarını daha çox Azərbaycana sərmayə qoymağa çağırır, Azərbaycan ilə Türkiyənin iqtisadiyyatının bir-birinə daha da yaxınlaşmasını məqsədəuyğun hesab edirdi. O deyirdi ki, bu, həm iqtisadi nöqteyi-nəzərdən Azərbaycan üçün çox əhəmiyyətlidir, həm də tarixi dostluğumuzu, qardaşlığımızı davam etdirmək üçün vacibdir. İqtisadi əlaqələri ən əvvəl Türkiyənin böyük təcrübəsi, böyük iqtisadi potensialı, texniki potensialı olan şirkətləri ilə qurmaq lazımdır[22]. Türkiyənin və Azərbaycanın iş adamları ilə görüşdə Heydər Əliyev Türkiyədəki iş adamlarının Azərbaycana sərmayə qoymasının vacibliyini bildirirdi: “Azərbaycanla Türkiyənin əlaqələri elədir ki, gərək Türkiyənin iş adamları bizim aramızda bəziləri tərəfindən yaradılan buzu yara-yara ölkəmizə gəlsinlər”. Heydər Əliyev Türkiyənin iş adamlarının Rusiyada, başqa ölkələrdə həddindən artıq böyük miqyaslı işlər gördüyünü qiymətləndirməklə yanaşı, belə fəaliyyətdə Azərbaycanı unutmamağı tövsiyə etdi: “...Nəinki unutmaq, Azərbaycanda şərtlər başqa yerlərdən çətin, ağır olsa da, bu şərtləri birlikdə

18 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 395-396.
19 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 396-397.
20 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 396-397.
21 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 398-399.
22 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 390-392.

aradan qaldırıb, ölkələrimiz arasındakı iqtisadi əlaqələri daha da möhkəmləndirməliyik..."[23].

30 may 1996-cı il tarixində "Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının perspektivləri" mövzusuna həsr olunmuş konfransın açılışında Heydər Əliyev nitqində qeyd etdi ki, Türkiyə ilə Azərbaycan arasında əlaqələr təkcə ticarət əlaqələri ilə bitməməli, məhdudlaşmamalıdır. Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr respublikamıza sərmayə qoymaq, ölkəmizdə müştərək iş görmək, müştərək işlər nəticəsində həm mənfəət götürmək, həm də Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməkdən ibarət olmalıdır[24].

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanarkən Türkiyə şirkəti bu müqavilənin layihəsinin 1,75 faizinin sahibi olmuşdur. "Əsrin müqaviləsi"nin bağlanmasından sonra dünya dövlətlərinin Azərbaycanın iqtisadiyyatına sərmayə qoymaq marağı artdı. Heydər Əliyev iş adamlarını çəkinmədən investisiya qoymağa əmin etdi: "*Əgər dünyanın doqquz-on böyük neft şirkəti Azərbaycanda iş görmək üçün müqavilə bağladısa, 3 milyard dollardan çox kapital qoymaq qərarına gəldisə, demək, onlar Azərbaycanın bu gününə də, gələcəyinə də inanırlar... Neft müqaviləsini imzalamağımız bütün iş adamları üçün, o cümlədən Türkiyənin iş adamları üçün həm böyük örnəkdir, həm də sübut edir ki, Azərbaycanda iş görmək, buraya çoxlu kapital qoymaq olar...*"[25]. Türkiyənin Prezidenti Süleyman Dəmirəlin, Baş nazir Tansu Çillərin müraciətlərindən sonra Azərbaycan həmin müqavilədə öz payından 5 faizin də əlavə olaraq Türkiyə Cümhuriyyətinin sərəncamına keçməsinə razılıq vermişdir. Heydər Əliyev neftin ixracı üçün boru xəttinin Türkiyədən keçməsinə həmişə əhəmiyyət vermişdir[26]. 1995-ci ildə Bakı-Novorossiysk neft kəmərinin çəkilməsinə dair danışıqlar başladıqdan sonra Rusiya həm ucuz, həm də tez bir zamanda çəkilməsini səbəb göstərərək bu xəttin ana xətt olması üçün mübarizəyə keçdi. Rusiya Bakı-Ceyhan neft xəttinin Bakı-Novorossiysk və Bakı-Supsa xəttindən daha baha başa gələcəyini, Türkiyənin ərazisindən keçən hissəsində PKK terrorçuları tərəfindən təhdid ediləcəyini də bildirirdi. Halbuki Bakı-Novorossiysk xətti Rusiyanın müharibə vəziyyətində olduğu Çeçenistanın da ərazisindən keçirdi. Avropa Birliyi dövlətləri isə Bakı-Supsa neft kəmərinin ana xətt olmasına çalışırdılar. Çünki AB dövlətləri bir tərəfdən Bakı-Ceyhan neft kəmərinin çəkilməsi ilə Türkiyənin bölgədə əhəmiyyətli bir mövqe tutacağından ehtiyat edirdilərsə, digər tərəfdən Bakı-Novorossiyskin ana xətt olması ilə Rusiyanın bölgədəki nefti ələ keçirməsindən ehtiyyat edirdilər. Halbuki Bakı-Supsa xətti də münaqişə mənbələri olan Abxaziya, Cənubi Osetiya, Acarıstan, ən başlıcası isə Ermənistanın iddia etdiyi və potensial münaqişə mənbəyi olan Cavaxetiya ərazisindən keçirdi[27]. Heydər Əliyev və Süleyman Dəmirəl neft boru xəttinin Türkiyədən keçməsi üçün çox çalışdılar və Heydər

23 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 5-ci kitab*, 156-157.

24 D: Heydər Əliyev, *Müstəqilliyimiz əbədidir: 6-cı kitab, mart 1996, noyabr 1996, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)* (Bakı: Azərnəşr, 1998), 357-358.

25 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 2-ci kitab*, 464-465.

26 D: Heydər Əliyev, *Müstəqilliyimiz əbədidir: 3-cü kitab, dekabr, 1994, iyun 1995, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar müsahibələr)* (Bakı: Azərnəşr, 1997), 330-331.

27 D: İlham Hasanov, *"Haydar Aliyev döneminde Azerbaycan'ın dış politikası (1993-2001)"* (Yüksek Lisans Tezi, Ankara Universitesi, 2003), 95-95.

Əliyevin təşəbbüsü ilə yaradılan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Türkiyə ərazisindən keçirilməsinə nail oldular. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri barədə imzalanmış saziş Azərbaycan üçün çox əhəmiyyətli olduğu kimi, boru kəmərinin Türkiyədəki boğazların təhlükəsizliyini təmin etmək və sərmayə götürülməsi baxımından da böyük əhəmiyyəti var idi. Heydər Əliyev qazın da Türkiyəyə ixracına çalışırdı və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin çəkilişi ilə buna nail oldu.

### 4. Elm, təhsil, mədəniyyət sahəsində əlaqələr

Ümummilli lider Heydər Əliyev Azərbaycan və Türkiyə arasında elm və təhsil sahəsində əlaqələrin yüksək səviyyədə inkişafına çalışmış, Azərbaycandan tələbələrin Türkiyəyə təhsil alması və geri dönməsi, vətənimiz üçün yararlı kadrların yetişməsinə, professor və müəllimlər arasında əlaqələrə böyük ümid bəsləmişdir.

Ümummilli lider Heydər Əliyev Türkiyə Cümhuriyyətinin ümumbəşəri dəyərlərə əməl etməsini yüksək qiymətləndirərək Türkiyənin daxili və xarici siyasətinin tədqiqinə önəm vermişdir: "Atatürkün məşhur "Yurdda sülh, cahanda sülh" ideyasından doğan işığa doğru irəliləyən müasir Türkiyə dövlətinin yeritdiyi daxili və xarici siyasətin, sosial-iqtisadi və mədəni tərəqqi təcrübəsinin elmi-nəzəri tədqiqat obyektinə çevrilməsi, öyrənilməsi böyük əhəmiyyət kəsb edir"[28]. "...Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu zaman, Türkiyə ilə Azərbaycan arasında böyük sədlər mövcud olduğu zaman alimlərimiz bu sədləri özlərinin fədakarlığı, cəsurluğu, vətənpərvərliyi ilə yararaq, ayrı-ayrı cığırlar açaraq Türkiyəyə, Türkiyə Cümhuriyyətinə həmişə meyil göstərmişlər, əlaqə saxlamışlar, araşdırmalar aparmışlar və o dövrdə də böyük işlər görmüşlər..."[29].

1994-cü ildə Türkiyənin ali məktəblərində təhsil almağa yola düşən azərbaycanlı tələbələrlə görüşdə Türkiyədə universitetlərin bütün imkanlarından geniş faydalanmağı tövsiyə edən ümummilli lider demişdir: "...İstərdim ki, siz Türkiyə universitetlərinin bütün intellektual imkanlarından səmərəli istifadə edərək mükəmməl təhsil alasınız, yaxşı mütəxəssis olasınız, Vətənimizə, xalqımıza, millətimizə gələcəkdə sədaqətlə xidmət edəsiniz"[30]. Heydər Əliyev xarici ölkələrə, o cümlədən Türkiyəyə təhsil almağa gedən tələbələrə vətəndaşı olduqları ölkənin – Azərbaycanın adını uca tutmalarını, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət etmələrini tövsiyə edirdi: "...Türkiyə qardaş ölkədir. Odur ki, Türkiyədə siz özünüzü öz məmləkətinizdəki kimi hiss edəcəksiniz. Lakin bununla yanaşı, siz gərək Azərbaycanın təmsilçiləri kimi, Türkiyədə Azərbaycanın həm tarixini, həm milli ənənələrini, həm də bugünkü gerçəkliyini geniş və tam obyektiv şəkildə təbliğ edəsiniz və bunları türk ictimaiyyətinə, sizi əhatə edəcək adamlara, tələbə yoldaşlarınıza, universitetlərdə təmasda olacağınız şəxslərə çatdırasınız. Bizim dostluq, qardaşlıq əlaqələrimiz nə qədər möhkəm olsa da, bu əlaqələri genişləndirmək, dərinləşdirmək və yüksəltmək üçün

28 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 220.
29 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 5-ci kitab*, 153-154.
30 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 354-355.

görüləsi işlər hələ çoxdur. Bu işlərin bir qismi də sizin üzərinizə düşür. Güman edirəm ki, təhsil almaqla yanaşı, bu vəzifəni də layiqincə yerinə yetirəcəksiniz”[31].

Türkiyədə, ümumiyyətlə, bütün türk diyarında, türk dünyasında elm və təhsil sahəsində uzun müddət fəaliyyət göstərən, türk xalqlarının birləşməsi sahəsində böyük xidmətləri olan Bilkənd Universiteti idarə heyətinin sədri İhsan Doğramaçi ilə görüşdə çıxışında Heydər Əliyev: “…biz burada xalqlarımız, ölkələrimiz haqqında danışarkən onların qədim tarixində elmin, mədəniyyətin, incəsənətin, təhsilin nə qədər böyük rol oynadığını qeyd etməliyik. Əgər xalqlarımız əsrlər boyu yaşayıblarsa, mübarizə apararaq öz mənliyini qoruya biliblərsə, öz milli xüsusiyyətlərini itirməyiblərsə, böyük mərhələlərdən keçərək indi müstəqil xalq kimi, dövlət kimi yaşayırlarsa, bütün bunlara görə xalqlarımız öz içərisindən çıxan mütəfəkkirlərə, yazıçı və şairlərə, bəstəkarlara, rəssamlara, memarlara, alimlərə minnətdardırlar. Böyük iftixar hissilə demək olar ki, xalqlarımız bu sahədə çox zəngindirlər. Bu zənginlik xalqlarımızda milli ruhu, milliliyi, milli ənənələri yaşadıb, nəsildən-nəsilə keçirib, bu günə gətirib çıxarmışdır…”-deyərək Azərbaycan xalqının türk dünyasının bir hissəsi olaraq böyük və zəngin elm, mədəniyyət tarixinə malik olduğunu, Azərbaycanın incəsənət ustalarının, alimlərinin, bəstəkarlarının, mədəniyyət xadimlərinin Türkiyənin bir çox elm və mədəniyyət ocaqlarında, o cümlədən də İhsan bəyin himayədarlığı ilə fəaliyyət göstərdiyini qeyd etdi[32].

Türkiyə Parlamentində dahi Azərbaycan şairi Məhəmməd Füzulini anma mərasimində çıxış edərkən Heydər Əliyev böyük türk sənətkarların öz əsərləri ilə türk dövlətlərini mürəkkəb vəziyyətdə də birləşdirdiyini bildirdi: “…biz müəyyən siyasi, ideoloji səbəblərə görə, düşdüyümüz vəziyyətə görə Türkiyədən ayrı olduğumuz halda qəlbimiz həmişə bir olub, Füzuli Türkiyədə də, Azərbaycanda da səslənib. Tək Füzuli yox, bizim xalqlarımızın Füzuli kimi böyük sənət adamları, şəxsiyyətləri bizi ayrılığa qoymayıbdır. Yəni bizi daim birləşdirib və bizi ayıran qüvvələrin qarşısını almağa kömək edib”[33]. Ümummilli lider dahi şairin yubileyinin Türkiyədə də keçirilməsini qiymətləndirmişdir: “…Füzuli yubileyi təkcə Füzulinin şəxsiyyətinə, onun yaradıcılığına verilən qiymət deyil. Füzuli yubileyi xalqlarımızın birləşdirilməsinə, yaxınlaşmasına, gələcəkdə bir yolla əzmlə getməsinə şərait yaradan böyük bir hadisədir…”[34]. Türkdilli dövlətlər “Manas”ın 1000 illiyini, böyük qazax şairi, filosofu Abayın 150 illiyini, Özbəkistanın böyük dövlət xadimi, bütün türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660 illiyini, böyük Azərbaycan şairi, eyni zamanda bütün türk dünyasına mənsub olan Məhəmməd Füzulinin 500 illiyini bir yerdə qeyd etdilər.

Heydər Əliyev sovet dövründə 70 il ərzində türk xalqlarının bir-birindən ayrı düşdüyünü, türk xalqlarının birliyinə mane olan amillərin olmasına baxmayaraq, elm, mədəniyyət, ədəbiyyat adamlarının həmişə birgəliyi təmin etdiklərini, milli ənənələrimizi, milli mədəniyyətimizi, dilimizi, tariximizi unutmağa qoymadıqlarını bildirdi: “…İndi isə biz bir-birimizə qovuşmuşuq,

31 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 355-356.
32 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 381-382.
33 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 2-ci kitab*, 479-480.
34 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 2-ci kitab*, 480-481.

bir-birimizi qucaqlamışıq, bir yerdəyik. Burada, bu salonda kimin türkiyəli, kimin azərbaycanlı olduğunu ayırmaq mümkün deyildir, heç ayırmaq da lazım deyildir. Biz birbirimizə qaynayıb-qarışmışıq və bu proses davam edəcəkdir. Şübhəsiz ki, hamımız bu prosesin davam etməsi üçün səylərimizi əsirgəməyəcəyik”[35].

Heydər Əliyev türk ləhcəsi ilə Azərbaycan ləhcəsi arasında yalnız bəzi fərqlər olduğunu, bunun da müəyyən səbəblərdən yarandığını bildirdi: “Bir tərəfdən siz öz dilinizi modernləşdirmisiniz, digər tərəfdən isə bizim dilimiz müəyyən dərəcədə təkmilləşmişdir. Fərqlər də buradan irəli gəlir. Ola bilsin ki, 60-70 il öncə bu fərqlər az idi. Lakin elə indi də türk xalqlarından heç birinin dili Azərbaycan və türk dilləri qədər bir-birinə yaxın deyildir. Bütün bunlar onu göstərir ki, dostum İhsan bəyin qeyd etdiyi kimi, ölkələrimiz ayrı olsalar da, xalqlarımız birdir və bir olacaqlar. Buna heç bir şübhə ola bilməz. İndi bunun üçün daha böyük imkanlar açılmışdır[36]. Heydər Əliyev türkdilli xalqların bir-biri ilə daha da yaxınlaşması, bir-birini bilavasitə daha da anlaması üçün yazıçıların öz xidmətlərini göstərmələrini tövsiyə edirdi: “...Bizim dillərimiz bir kökə mənsubdur və bir-birimizi anlayırıq. Ancaq yaxşı olardı ki, dediyim bu sözləri mənim özbək, qırğız, qazax qardaşlarım da azərbaycanlı kimi anlasınlar və eyni zamanda bu qurultayda Başqırdıstandan, Qırğızıstandan olan yazıçıların çıxışlarını bizim azərbaycanlılar da tamam anlaya bilsinlər”[37].

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının nəinki Türkiyə Cumhuriyyəti ilə, eləcə də digər türk dövlətləri ilə siyasi, iqtisadi, elm, təhsil, mədəniyyət sahələrində əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətini görür və bir dilə, bir kökə mənsub olan bu dövlətlərlə münasibətlərin inkişafına çalışırdı.

## Nəticə

Eyni dilə, dinə, oxşar adət və ənənələrə malik Azərbaycan və Türkiyə arasında əlaqələrin böyük tarixi vardır. Ümummilli lider Heydər Əliyev Sovet İttifaqının dağılmasından sonra türk dövlətlərinə sahib çıxaraq onların inkişaf etdirilməsi üçün Türkiyənin üzərinə düşən vəzifələr haqqında Qazi Mustafa Kamal Atatürkün vəsiyyətinin yerinə yetirilməsi zamanının gəldiyini, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil və digər sahələrdə əlaqələrin başqa dövlətlərlə olan əlaqələrdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəyini bildirirdi. Heydər Əliyev beynəlxalq təşkilatlarla, böyük dövlətlərlə əlaqələrdə Türkiyənin dünyadakı nüfuzundan və təsirindən istifadə edərək Azərbaycana kömək edəcəyinə inanırdı. Xüsusən də türkdilli, türk mənşəli respublikaların ümumi toplantısı olan Türk Dövlətləri Başçılarının zirvə toplantılarına önəm verirdi. Belə görüşlərin keçirilməsinin türk dövlətlərinin bir-biri ilə daha sıx əlaqələr yaratmasına müsbət təsiri olduğunu vurğulayırdı.

Heydər Əliyev xaricdə olan azərbaycanlıların diasporasının inkişafına, Azərbaycandan olan tələbələrin Türkiyədə təhsil alaraq geri dönmələrinə, vətənimiz üçün yararlı kadrların

35 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 381-382.
36 K.D: Əliyev, *Müstəqilliyimiz əbədidir: 1-ci kitab*, 382-383.
37 D: Heydər Əliyev, *Müstəqilliyimiz əbədidir: 8-ci kitab, noyabr 1996, mart 1997, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)* (Bakı: Azərnəşr, 1998), 10-11.

yetişdirilməsinə, professor və müəllimlər arasında əlaqələrə çox ümid bəsləyirdi. Elm, mədəniyyət, ədəbiyyat adamlarının həmişə birgəliyi təmin etdiklərini, milli ənənələrimizi, milli mədəniyyətimizi, dilimizi, tariximizi unutmağa qoymadıqlarını, böyük türk sənətkarların öz əsərləri ilə türk dövlətlərini mürəkkəb vəziyyətdə də birləşdirdiyini bildirirdi. Həm iqtisadi nöqteyi-nəzərdən, həm də qardaşlığımızın möhkəmləndirilməsi nöqteyi-nəzərindən Türkiyə ilə iqtisadi əlaqələrin inkişafına üstünlük verirdi.

**Hakem Değerlendirmesi:** Dış bağımsız.
**Çıkar Çatışması:** Yazar çıkar çatışması bildirmemiştir.
**Finansal Destek:** Yazar bu çalışma için finansal destek almadığını beyan etmiştir.

**Peer-review:** Externally peer-reviewed.
**Conflict of Interest:** The author has no conflict of interest to declare.
**Grant Support:** The author declared that this study has received no financial support.

## Kaynakça/References

K: Əliyev, Heydər. *Müstəqilliyimiz əbədidir: 1-ci kitab, iyun, 1993, may, 1994, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)*, Bakı: Azərnəşr, 1997.

K: Əliyev, Heydər. *Müstəqilliyimiz əbədidir: 2-ci kitab, may 1994, dekabr 1994, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)*, Bakı: Azərnəşr, 1997.

K: Əliyev, Heydər. *Müstəqilliyimiz əbədidir: 3-cü kitab, dekabr, 1994, iyun 1995, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar müsahibələr)*, Bakı: Azərnəşr, 1997.

K: Əliyev, Heydər. *Müstəqilliyimiz əbədidir: 4-cü kitab, iyun, 1995, noyabr, 1995, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)*, Bakı: Azərnəşr, 1997.

K: Əliyev, Heydər. *Müstəqilliyimiz əbədidir: 5-ci kitab, noyabr, 1995, mart 1996, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)*, Bakı: Azərnəşr, 1998.

K: Əliyev, Heydər. *Müstəqilliyimiz əbədidir: 6-cı kitab, mart 1996, noyabr 1996, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)*, Bakı: Azərnəşr, 1998.

K: Əliyev, Heydər. *Müstəqilliyimiz əbədidir: 8-ci kitab, noyabr 1996, mart 1997, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr)*, Bakı: Azərnəşr, 1998.

K: Əliyev, Heydər. *Müstəqilliyimiz əbədidir: 33-cü kitab, mart, 2001, aprel, 2001, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, məruzələr, müraciətlər, fərmanlar)*, Bakı: Azərnəşr, 2011.

K: Hasanov, İlham. "Haydar Aliyev döneminde Azerbaycan'ın dış politikası (1993-2001)". Yüksek Lisans Tezi, Ankara Universitesi, 2003.

K: Google. İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər. Son güncelleme 11 Aralık, 2020. https://president.az/az/articles/view/48788

K: Google. Süleyman Dəmirəl-Heydər Əliyev qardaşlıq münasibətləri türk dünyasının həmrəylik rəmzidir. Son güncelleme 17 Haziran, 2022. https://azertag.az/xeber/Suleyman_Demirel_Heyder_Aliyev_qardasliq_munasibetleri_turk_dunyasinin_hemreylik_remzidir-2181920

K: Google. Türkiye-Azerbaycan ilişkilerinde "Haydar Aliyev". Son güncelleme 15 Ocak, 2020. https://yesiligdir.com/yazar/yazi/7547#